
NEFTƏ
1933

3474
894.362 22395
С 30 Сејидзадә
Нефтә доғру
28-II-78
691/5
22395

M. SEJIDZADƏ

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KITABXANASI
INV. № 58807
894.362-93 S 37
13 Ә
S. 30
С-30
2015 фонд 22395 2015 фонд 2015 фонд

# NEFTƏ DOƢRU

Cəfər Cabbarlı adına
Türk Kitabxanası
Inv. № 347
М. Ф. Ахундов адына
Азәрбајҹан Республикасы
Умуми Китабханасы
Инв. № 39163

AZƏRNƏŞR

Bakь—1933

Redaqtoru:
M. ARIF
Tex. redaqtoru:
Z. AƢAJEV
Buraqьçь:
X. KAZЬMOV

Baş M. Mydirligi Myvəkkilligi № 7385. Sifariş № 23. Tiraƶ 3000.
Istehsalata verilmiş 4/I—33. Capa verilmiş 8/II—33.
Cap listi 1 1/2 Kaƣьz formatь 58×82.
AZƏRNƏŞR MƏTBƏƏSINDƏ BASЬLDЬ.
B. Morsqoj və Qrasno-Presnen. kycələrin tinində № 16/36.



## NEFTƏ DOƢRU.

Bu gyn jenə mə’ruzə var,
Pionerlər oturmuş,
Bə’zləri jazmaq ycyn
Kaƣьz ƣələm gətyrmyş.
Sədr dejir: «Sakit, səssiz!
Dinləjiniz joldaşlar!
Neft haqqьnda coq maraqlь,
Dəjərli mə’ruzə var!
Səz verilir indi sizin
Manqa başь Dəmirə».
Gurultular...—əl calьrlar
Coçuqlar, birdən-birə
Manqa başь durmuş, hamь
Baqьr, onun yzynə,
Mə’ryzəni başlamьşdьr
Davam edir səzynə:
«Joldaşlar!
Bir coq bəjyk şəhərlərdən
Bə’zi-bə’zi jerlərdən,
Dəfələrlə dəjərlidir,
Bizim bu neft əlkəsi.





Azsa onda jaşьl, atlas
Aqaclarьn kəlkəsi,
Jenə bytyn jer yzynə
Jajьlmьşdьr şəhrəti.
Hər tərəfdə coq dəjərli
Sajьlmьşdьr şəhrəti.
Hər kəs ona gɵzlərini
Zilləjərək baqmada,
Dyşmənlərin bu şən şəhər
Yrəgini jaqmada.
Qaptalistlər qьcьrdadьr
Balta kibi dişini,
Geçə-gyndyz tə'qib edir:
Bu şəhərin işini.
Bilirlər ki, neft olan jer
Devlət, qьzьl jeridir!
Hər ɵlkədə neft olmasa
Texniqadan geridir!
Bu neft bizim ɵlkəmizə
Qyvvət, bilik verməda,
Bu neft bizim ɵlkəmizə
Coq jenilik verməda.
Jyz minlərlə zərbəcilər,
Polad qollu işcilər,
Jyz minlərlə qahramanlar,
Tunç biləkli işcilər
Calьşьrlar ki, neftimiz
Gɵjə atsьn fantanь.
Calьşьrlar, ɵdənilsin
Neftimizin planь.
Pionerlər, gərək nefti
Ɵjrənsinlər jaqьndan!
Qalmasьnlar bir an geri
Neftə doqru aqьndan».
Pionerlər dinləjirkən
Rəhbərin bu sɵzyny,
Dikmiş idi hamь ona
Coq diqqətlə gɵzyny.
Neft haqqьnda manqa başь
Ɵz nitqini bitirdi;
Coçuqlara fərəh verib
Həjəçana gətirdi.

Bəjyk zalь byrymyşdy,
Gurultulu alqьşlar...
Artьq daha joqalmьşdь
O, diqqətli baqьşlar.
Pionerlər danьşmaqcьn
Həvəslə səz alьrdь,
Gurultular qopararaq
Ətrafa səs salьrdь.
Dejirdilər: «Hajdь gedək
Mə'dənlərə bu gyn biz,
Nefti gərək və əjrənək
Sakit olsun qəlbimiz!»
Rəhbər dedi: «Sakit olun,
Tələsməjin, durunuz,
Sabah tezdən mə'dənlərə
Gedəçəgiz hamьmьz,
Aq şəhərdən bizimcin bir—
Avtomobil gələçək,
Hamь gedib, nefti gəryb
Əjrənəçək, biləçək;
Coçuqlarьn sevinçindən
Sankь qəlbi ojnadь;
Bir-birinə dəjdi onlar,
Çoşdu, daşdь, qajnadь.

---

Pionerlər durmuş bu gyn
Səhər tezdən jujunmuş,
Qalstuqu taqmьş hamь,
Paltarьnь gejinmiş;
Halqa kibi byrymyşlər,
Onlar manqabaşьnь
Jola baqьb sevinç ilə
Gəzləjirlər maşьnь.
Bir az sonra avtomobil
Ьslьq calьr, janaşьr,
Minmək ycyn pionerlər
Birər-birər dьrmaşьr,
Avtomobil dyşyr jola...
Qьşqьrьrlar, aj, urra!
Artьq neftə doqru getdik
Getmədəjiz... budur ha!..

---



Maşьn gəlib catьnça
Pionerlər tez dyşdy,
Mə'dənlərə getdilər:
Şadlьqla sejr etdilər
Mə'dənin hər janьnь,
Gərdylər fantanьnь.
Gəz baqdьqça hər jana,
Fərəh verir insana.
Qalqmьş gəjə vьşqalar,
Hər janda rezervuar.
Bir janda tulumbalar,
Almas kibi parьldar.
Bir janda vardьr motor,
Bir tərəfdə traqtor;
Neft avomobilləri,
Ditrədirlər jerləri,
Polad qollu işcilər,
Qahraman zərbəcilər
Vermiş hamь əl-ələ,
Calьşьr coq həvəslə.
Onlarьn gəzlərində,
Qararmьş yzlərində
Əmək zevqi parlajьr.
Şimşək kibi gurlajьr.
Hamь işə alьşьr,
Sevinç ilə calьşьr.
Bə'zləri buruqda,
Bə'zləri qьraqda.
Bə'zisi jer burmada
Bə'zi cəkic vurmada,
Bə'zisi jyk jykləjir,
Hamь işləməkdədir.
Girişmişlər jarьşa,
Maraqlarь var işə.
Əlkəmizə çan verən
Qyvvət verən, qan verən
Nefti cьqarьr onlar,
Jerləri jarьr onlar!
Fit verildi işcilər,
[illegible]
Nefti artьq sanь[illegible]
Hər əlkədə anьlьr.

Tənəffysə cьqdьlar.
Aşxanada oturub,
Hamь jemək gətirib
Orda jejib icdilər,
Şirin səhbət etdilər.

———



Pionerlər gəldilər,
Onlarla əl verdilər.
Dedilər: «Joldaşlar biz—
Neftin maraqlьsьjьz;
Rəca edirik sizdən,
Bu gyn øz işinizdən,
Bizə mə'lumat verin,
Gərək bu mə'dənlərin
Quruluşu neçədir,
Buruq işi neçədir.
Jerlər neçə qazьlьr,
Nenft neçə cьqarьlьr?
Gərdygymyz nasoslar
Nefti neçə nasoslar; aj, urra!
Kəsrin Artьq neftə doqru getdik
Getmədəjiz... budur ha!..

———



Plan ədənilirmi?
Məhsul jaxşь gəlirmi?
Bunlarь bilməkcin biz
Olduqça maraqlьjьz»

———

Işcilər sevindilər,
Hamь şən gəryndylər,
Dedilər: «Xoş gəlmişsiz!
Bu saatda hamьnьz,
Hansь bir işə dajir
Maraqlansanьz, bir bir
Mə'lumat alarsьnьz,
Coq razь qalarsьnьz!»
Sonra profqom birdən,
Qalqaraq øz jerindən
Dedi: «Gedək, bu saat
Tapşьrьm, texnik Murad
Hər bir şeji gøstərsin,
Sizə mə'lumat versin».

———

Baqaraq sola-saqa
Murad bøjyk həvəslə
Jyksək ahəngli səslə
Başladь danьşmaqa
Dedi: «Gənç pionerlər!
Gərdygynyz bu jerlər,
Bir coq illərdənbəri
Olmuş mə'dən jerləri;
Neft, topraqьn altьnda,
Dərin-dərin qatьnda
Jataq salьb jatmьşdьr,
Ətrafa qol atmьşdьr;
Ən jaxşь neft olan jer
Şimali Ameriqadьr,
Sonra bizim neftimiz
Dəjərlidir şybhəsiz;
Başqa jer yzyndəki
Neftlərdən bizim Bakь
Nefti artьq sanьlьr,
Hər ølkədə anьlьr.

Qroznьda da neft var
Dejilsə Bakь qədər,
Lakin o coq təmizdir,
Ən jaxşь neftimizdir.
Kecmiş, qədim zamanlar,
Bakьdakь insanlar,
Nefti tanrь sanmьşlar;
Ona coq inanmьşlar.
Dynja mədəniləşmiş,
Gormyşlər ki, bu boş iş;



Allah, filan jalandьr,
Neft maje'dir, janandьr.
Hamь onu jandьrmьş,
Hər olkəjə andьrmьş
Neftin əhəmijjətini,
Gyçyny, qyvvətini.
Lakin o zaman, hələ
Coq cətindi məsələ:
Hamь əlilə jerdən
Neft cьqarьrmьş; birdən
Texniqa genişlənmiş,
Bysbytyn iş dəjişmiş;
Tapmьşlar son ysulu,



Neft cьqarmanьn jolu
Olduqça asanlaşmьş,
Istehsal planlaşmьş.
Bilməlijiz coçuqlar
Indi iki ysul var:
Biri qazma ysulu,
Biri burma ysulu,
Qazma da jeni dejil,
Coq da mədəni dejil.
Burma ən jaxşь joldur,
Ən mədəni ysuldur.
Bu son ysula dajir
Mən sizə indi bir-bır
Mə'lumat verəçəgəm,
Hər şej gostərəçəgəm.
Baqьn bunlara sarь:
Burda jerə qojulan
Bu buruq dəzgahlarь
Zənçirlərlə, tellərlə
Uzun-uzun millərlə
Bitişib motorlara,
Dişli-dişli carxlara.
Bilirsiniz iş nədə?
Onun da mərkəzində
Buruqu kecirmək ycyn
Bir dəlik vardьr, baqьn!
Fikir verin, baq buna,
Bu buruqunun uçuna
Jeri kəsən polad bir
Balta bərkidilmişdir.
Bir baqьnьz, burasь
Bu baltanьn formasь
Dyz, yz-bə-yz qojulmuş.
Bu fьrlanan ştanqdьr.
Juqarьdan aqьr oq
Təzjiq edir, gyç gəlir;
Balta da fьrlanaraq,
Jerin qəlbini dəlir.
Qazma bitdikdən sonra,
Qojulur qujulara

Tulumbalar, nasoslar,
Bunda bəjyk maraq var.
Haman tulumbalarь
Eleqtrik motoru
Işlədir neft cьqarьr.
Cьqarьlan qara neft
Daşьnьb aparьlьr.
Xysusi zavodlara,
Dyşyr qьzqьn odlara.
Bu zavodlar da nefti
Arьdьb təmizləjir,
Çevhərini, jaqьnь
Syzyb, cəkib ələjir....
Təmiz benzin bir jana,
Maşьn jaqь o jana,
Vazelin, başqa şejlər,
Jyz doqsan beşə qədər
Neftdən məhsul alьnьr;
Hər tərəfə jollanьr.
Pionerlər dedilər:
«Indi bildik ki, nələr
Neftdən hasil olurmuş.
Jalnьz qalmьşdьr bir iş:
Bəs neft əzy nə imiş?
Nədən əmələ gəlmiş?»
Murad dedi: «Coçuqlar,
Bu haqda coq fikir var;
Alman kimjagəri
Bertole hər bir jeri
Dolaşaraq, gəzmişdir,
O nihajət sezmişdir:
Neft mineraldan olmuş...»
Bununla bitməjir iş,
Başqa bir alim Enqler
Demiş: «Doqru dejildir,
Mən tədqiqlər etmişəm,
Coq jerlərə getmişəm,
Təçribəm var jaqьndan
Neft balьqьn jaqьndan
Əmələ gəlmiş şəksiz.
Inana bilərsiniz!

Lakin coçuqlarьm, biz
Hələ jəqin bilmiriz
Neft nədən hasil olmuş?
Mybahəsəlidir iş».

---

Işcilər toplanmьşlar,
Bu gyn bəjyk içlas var;
Gəlmiş pionerlər də
Işcilərlə bir jerdə
Iştirak etmək ycyn,
Bilsinlər nədən, necin
Bu içlas caqьrьlmьş,
Getmədədir neçə iş?
Hamь diqqətlə baqьr,
Cьqьr Rəhimi baqьr,
Dejir: «Əziz joldaşlar!
Bu gyn yc məsələ var:
Birinçi atcotumuz,
Ikinçisi gərək biz,
Jyz əlli zərbəcijə
Verək bu gyn hədijjə.
Ycynçysy jarьşdьr,
Bu da ən vaçib işdir,
E'tiraz edən varmь?!...»
—Joq! Joq!! Razьdьr hamь!
Mə'ruzə etsin—dejə,
Səz verilir Təqijə.
Ətraf səssiz sakitdir,
Mə'ruzəci danьşьr:
«Joldaşlar atcotumdan
Əvvəl istəjirəm mən
Neft əhəmijjətindən,
Gyçyndən, qyvvətindən
Danьşьm sizə bir az,
Vardьrmь bir e'tiraz!»
Joqdur! Joqdur! Səjləjin.
—«Elə isə dinləjin:
Beş, altь ildənbəri
Sizin jeni evləri
Neftdir ьşьqlandьran,
Neftdir soba jandьran.

Neftdəndir ki, əl ysty
Olmadan his və tysty,
Xərək pişirirsiniz,
Çərək pişirirsiniz.
Neft gyçilə tramvaj
Işləjir qolaj-qolaj.
Əgər benzin olmasa,
Əgər rezin olmasa,
Getməz avtomobillər,
Onlar qansьz dejillər.
Onlarьn da qanь var,
Onlarьn da çanь var.
Benzin çandьr onlara,
Benzin qandьr onlara.
Kicik motosiqletlər,
Getməkcin benzin dilər.
Jyk avtomobilləri
Dolaşьrlar hər jeri;
Benzin gyçilə jalnьz
Getməz onlar benzinsiz;
Fabriqa mətbəxləri,
Bəjyk dəjirmənləri,
Çərək zavodlarьnь,
Onlarьn odlarьnь,
Verən dejilmidir neft?
Əlbəttə ki, odur, neft!
Neft gyçynə parovoz
Jyryjyr geçə, gyndyz.
Benzin olmasa əgər,
Bizim bu təjjarələr,
Gəj yzyndə uçmazlar,
Bulutlarь quçmazlar;
Onlar benzinlə uçur,
Qyvvələri benzindir;
Gəryn neftdə nə gyç var,
Dənizdə paraxodlar
Neftin gyçilə gəzir,
Neftin gyçilə yzyr
Sualtь qajьqlarь,
Jarьrlar dalqalarь.
Benzinin qyvvəsilə,



Benzinin gur səsilə
Kəntdəki traqtorlar,
Qombajnlar, motorlar
Neftlə jer əkirlər;
Neftlə jer səkyrlər,
Əlkəjə devlət verən,
Pambuqlarь beçərən,
Qolxozlarь dirildən,
Sovxozlarь dirildən,
Neftdir, əziz joldaşlar,
Neftdə bəjyk qyvvət var!
Bu gyn neft əlkəmizdə,
Quruda, həm dənizdə,
Sosializm binasьnьn
Kəməginə qoşmada,
Lakin coçuqlar, bilin!
Dynjalar toqquşmada.
Işçinin əlində neft,
O qara yz, qara qan,
Sosializmin jolunda
Capalajьb dururkən,
Qapital əlkəsində,
Istismar əlkəsində,
Neft dənərək qьzьla,
Hej sьzьla-sьzьla,
Aqьr, təkylyr jenə
Qapitalist çibinə;
Neftdən miljon qazanan,
Hirsdən od dutub janan.
Qapitalist kəpəklər
Bizə tərəf iməklər.
Qapitalьn boz iti
Gəryb bizim nəjyty
Aqzьndan su aqьdьr,
Tyklərini daqьdьr...
Dynjanьn belə gəzəl
Jerlərini əl-bə-əl,
Cajnaqьna kecirmək
Istəjən hər bir kəpək:
Qapital azqьnlarь
Bizim əlkəjə sarь

Gəz dikib gyndyz-geçə
Bilməjirlər ki, neçə
Bir kələk dyzəltsinlər,
Bizimlə hərb etsinlər.
Neftimizdir onlarьn
Gəzlərini cьqaran
Neftimizdir onlarь
Jaqьb sarsьdan, saran
Bizim neft əlkəsini,
Bu sərvət əlkəsini
Almaqa çan atьrlar,
Lakin, jaman caşьrlar
Gylləni jan atьrlar...
Biz dava istəmiriz,
Lakin acьq dejiriz:
Dyşmən gəlsə qorqmarьz,
Sakit durub baqmarьz;
Ona qarşь cьqarьz,
Aqьr zərbə vurarьz.
Vardьr Qьzьl ordumuz
Onun arqasьnda biz,
Sьralarla durmuşuq,
Coq giqantlar qurmuşuq.
Əlkəmiz artsьn—dejə,
Neftimiz sənajeə
Işlənmişdir, işlənir,
Texniqa genişlənir.
Əlkəmizdə gyn-gyndən
Əskiligi kəkyndən,
Baltalajьb atьrьz,
Jenilik jaradьrьz.
Məhkəm duturuq işi.
Azqьn dyşmənə qarşь
Durmaq ycyn bizdə var:
Hərbi aeroplanlar
Toplar, tanqlar, tyfənglər,
Burzuj jaqan fşənglər,
Qajьqlar, paraxodlar,
Onlar dyşməni odlar
Dinç zamanda hər jana
Ьşьq sacar neftimiz,



Hərb olarsa dyşmənə
Atəş acar neftimiz.
Neftin əhəmijjəti,
Bytyn gyçy qyvvəti
Artьq bəllidir sizə,
Bildiniz əlkəmizə
Neft nələr verməFdədir,
Nə işlər gərmədədir.
Indi atcotumuzu
Səjləjərək, mən sizi
Işdən edim xəbərdar,
Biliniz ki, nələr var.
Bizim dəmirdən mətin
Firqə və həkymətin
Neft planьna dajir
Qərarlarь bəllidir;
Hamьnьz bilirsiniz,
Şəksiz bitirməlijiz:
Neftin beşilligini
Dyz iki il jarьmda.
Vaqt gəlib catьb başa.
Və'dənin bitməsinə
Qalmьşdьr iki həftə.
Iki həftə— on beş gyn,
Bu on beş gyny bytyn
Varlьqilə hər işci,
Hər qahraman zərbəci,
Elə calьşsьn gərək,
Plan ədənilərək
Qalmasьn hec kəsrimiz,
Onda şad olarьz biz.
Joldaşlar, baq bu gyn mən
Bildim son rəqəmlərdən:
Myvəffəqijjət vardьr,
Həm də dynja qadardьr.
Lakin bununla belə
Bilməlisiniz, hələ,
Kəsrimiz də joq dejil,
Doqrudur o coq dejil.
Ançaq, jenə ona biz
Atəşlər acmalьjьz.
Bitsin gərək kəsirlər,

F. Köprülü adına Azərbaycan Dövlət Uşaq KITABXANASI INV. № 58807
22395

Cynky bu gyn əsrlər,
Bizimcin il kibidir,
Tempimiz sel kibidir.
Biz daşaraq çoşmuşuq,
Sosializmə qoşmuşuq.
Biz jerləri jarьrьz
Qanьnь cьqarьrьz.
Bakьdan Batumadək
Cəkdigimiz o nəhəng,
Neft kəməri, jejir neft,
Geçə, gyndyz dejir neft.
Indiki dəmir kəmər
Jorulmadan bu qədər,
Geçə, gyndyz udur neft,
Gərək dejək budur neft:
Hər nə qədər istəsən,
Bizdən nefti istə sən!
Biz cьqaraq, sən apar,
Dynjanь neftinlə sar,
Jollarь jara-jara,
Qoj icindən bazara,
Ьrmaq kibi aqsьn neft,
Deterdinqi jaqsьn neft».

---

Artьq mə'ruzə bitmiş,
Hər kenyldə cьrpьnьş,
Şadlьq, sevinç, fərəh var;
Gøjə cьqmьş alqьşlar.
Bir zərbəci jerindən
Durub dejir: «Bu gyn mən
Søz verirəm, planь
Bitirməkcin hər anь
itirmədən calьşьm,
Hər zəhmətə alьşьm,
Ta kəsirlər joqalsьn,
Məhsul artsьn, coqalsьn».
Cьqaraq bir pioner
Bu søzləri søjləjir:
«Ej zərbəci işcilər,
Biz qьzьl lenincilər,
Sizin arqanьzçajьz,





Qəlbinizdir, qəlbimiz;
Biz də sizinlə varьz,
Neft ycyn carpьşьrьz.
Qoj neftimiz coqalsьn,
Ehtijaçlar joqalsьn».
Işcilər əl caldьlar,
Işdən razь qaldьlar.
Sonra bytyn işcilər,
Qahraman zərbəcilər,
Bir səslə hajqьrdьlar:
Kəsirdən qorqanmь var?
Bitməmiş içlas hələ,
Profqom sevinçilə,
Dedi: «Əziz joldaşlar,
Indi başqa bir iş var,
Jyz əlli zərbəcijə
Veriləçək hədijjə.
Bu jyz əlli qahraman
Calьşmьşlar hər zaman;
Şərəf, namus, himmətlə
Enerzi və qyvvətlə,
Vermiş onlar əl-ələ
Kønyl və maraq ilə;
Əməkdən zevq almьşlar,
Tənbəllik etməmişlər.
Əlbəttə bu gyn gərək
Təşəkkyrlər edərək,
Onlarь alqьşlajaq,
Mykafat baqьşlajaq».
Oqundu sijahilər,
Işcilər birər-birər,
Mykafatь aldьlar,
Şadlьqla əl caldьlar.
Sonra Suraxanьdan,
Gələn on beş qahraman
Zərbəcilərdən biri,
Jyryjərək irəri,
Dedi: «Gəlmişik bu gyn
Jarьşa girmək ycyn
Myqavələ baqlajaq,
Təqi dejirdi bajaq
Kəsrimiz vardьr bir az;



Bu murdar və jaramaz
Kəsirdən bizim də var;
Jarьş onu joqaldar».
Sonra zərbəci Dəmir
Hər maddəni bir-bə-bir
Oqujur ajdьnladьr,
Işcilərə anladьr.
Jarьş işi bitinçə,
Musiqi inçə, inçə,



Calьnmaqa başlajьr
Kønyllər şadlьq alьr;
Ojnajьrlar, calьrlar,
Işcilər zevq alьrlar.
Qonsert bitinçə, jenə
Hamь getdi evinə.
Qьzьl gənç pionerlər
Neft haqqьnda coq şejlər
Øjrəndilər, bildilər,
Sevinərək gyldylər.
Avtobusa mindilər,
Evə tərəf døndylər.

---

Gynəş cьqmьş yfyqləri
Qьzьl şəfəq byrymyş,

Hər konyldə bir şadlьq var,
Hər konyldə cьrpьnьş!
Şəndir bytyn əməkcilər
Şəndir bytyn işcilər,
Qolxozcular, sovxozcular.
Nəş'ə ilə gylymsər;
Radionun dalƣalarь
Jajьr bu şən xəbəri,
Byrymyşdyr bu şad xəbər
Hər kəndi, hər şəhəri.
Ej, radio dinləjənlər.
Bu gyn bytyn dynjanь
Hejrətlərlə salaçaqdьr
Neftimizin planь.
2½ ildə bu gyn
5 illigi bitirdik,
Bununla biz ɵlkəmizə
Ƣalibijjət gətirdik.
Əzmimizlə bu gyn bɵjyk
Xariqələr jaratdьq,
Əzmimizlə bu gyn gɵryn
Bizlər nələr jaratdьq.
Işcilərin bu birligi
Mɵhkəmləşsin, jaşasьn!
Dejiriz ki, ikinçi neft
Beşilligi jaşasьn!
Şuralar verir bu gyn
Doqsan nəfər işcijə
Şanlь Lenin nişanь
Alqьşlarla hədijjə.
Azərneftin, Ƣrozneftin
Qənraman işciləri,
Adlarьnьz dolaşaçaq
Hər ɵlkəni, hər jeri.
Zərbənizlə sarsьtdьnьz,
Siz jerlərin baƣrьnь,
Zərbənizlə sarsьtdьnьz
Dyşmənlərin baƣrьnь.
Pionerlər beşilligin
Bitdigini bildilər,
Bu xəbərdən şad oldular,





Sevindilər, gyldylər.
Qalqьb hamь şən, qьrmьzь
Ƣalstuƣu taqdьlar,
«Gənç işcini» alьb ona
Coq diqqətlə baqdьlar.
Gɵrdylər ki, ƣəzetdə var
Bir coq tanьş şəkillər,
Bə'ziləri oturmuşlar
Jenə də neft cəkirlər
Təqi, Ivan, Murad, Giqor,
A . . . . Zaman da burdadьr.
Zərbəcilər hamь burda
Qahramanda, burdadьr.
Lap başda da rəhbərimiz,
Stalinin şəkli var.
Bɵjyk xətlə işcilərə
O jazmьşdьr alqьşlar!
Pionerlər sɵz verdilər,
Işə kɵmək etsinlər,
Işcilərə jardьm ycyn
Neftə doƣru getsinlər.
Bununla biz ikinçi neft
Planьnь bitirrik
Ɵlkəmizcin jyz minlərçə
Ƣalibijjət gətirrik.

---

М. Ф. Ахундов адына
Азәрбајҹан Респ. ...
Умуми Китабханасы
Инв. № 39163

Инв. № 3474

60 qəp.

894.362-93
С-30

М. Сеид Заде

# ЗА НЕФТЬ

Азəрнəшр — 1933